AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

# **YADDAŞ**

BAKI – 2025

Vergi və sosial sığorta qanunvericiliyi ilə müəyyən edilmiş vəzifələrə əməl etmək hər bir vergi ödəyicisinin borcudur. Vergi və sosial sığorta sahəsində qanunvericiliyin pozulmasına görə vergi ödəyiciləri məsuliyyətə cəlb olunurlar.

Bu “YADDAŞ” vasitəsilə vəzifələrinizi yerinə yetirmədikdə tətbiq oluna biləcək maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri ilə tanış ola bilərsiniz.

Sizə vergi və sosial sığorta qanunvericiliyinə düzgün riayət etməklə vergilərinizin və sosial sığorta öhdəliklərinizin tam və vaxtında ödənilməsini tövsiyə edirik!

# Vergi və sosial sığorta sahəsində hüquqpozmalara qarşı tətbiq edilən məsuliyyət tədbirləri

| I | Vergi qanunvericiliyinin pozulması halları | Vergi Məcəlləsinə əsasən tətbiq edilən maliyyə sanksiyaları və faizlər |
|---|---|---|
| | ***Uçotun aparılmaması və ya düzgün aparılmaması ilə əlaqədar:*** | |
| 1 | • Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə:<br>◦ uçota alınmaq üçün ərizənin verilməməsi;<br>◦ olduğu yer barədə ərizənin verilməməsi;<br>◦ digər uçot məlumatlarında (vergi ödəyicisinin vergi uçotuna alınma haqqında ərizədə qeyd olunan rekvizitlər) dəyişiklik haqqında məlumatın təqdim edilməməsi;<br>• "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşınması<br>**(Vergi Məcəlləsi, maddə 58.2)** | **40** manat |
| 2 | - Təsərrüfat subyektinin (obyektinin) vergi orqanlarında uçota alınmaması və (və ya) təsərrüfat subyektinin (obyektinin) sahəsi barədə təhrif olunmuş məlumatın verilməsi, habelə kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, bazarlarda olan təsərrüfat subyektinin (obyektinin) girişində həmin təsərrüfat subyektinin (obyektinin) vergi orqanında uçota alınmasına dair (vergi ödəyicisinin adı və VÖEN-i göstərilməklə) məlumatın (arayışın) əks olunmaması | Mikro sahibkarlıq subyektlərinə, qeyri-kommersiya təşkilatlarına və qeyri-sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərə münasibətdə **40 manat,** digər şəxslərə münasibətdə **400 manat** |

| | | |
|---|---|---|
| | **Qeyd:** Bazarlara aid müddəa Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 16.12.2024-cü il tarixli 98-VIIQD nömrəli Qanunu qəbul edildikdən doqquz ay sonra qüvvəyə minir. (Vergi Məcəlləsi, maddə 58.2-1) | |
| 3 | Verginin (o cümlədən ödəmə mənbəyində verginin) hesabatda göstərilən məbləğinin verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılması, habelə büdcəyə çatası vergi məbləğinin hesabat təqdim etməməklə yayındırılması (Vergi Məcəlləsinin 58.1-1-ci maddəsində nəzərdə tutulan  ("Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mühasibat uçotunu məcburi qaydada elektron formada aparmalı) şəxslər istisna olmaqla) **(Vergi Məcəlləsi, maddə 58.1).** | Azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) **50 faizi** |
| 4 | Verginin (o cümlədən ödəmə mənbəyində verginin) hesabatda göstərilən məbləğinin verginin hesabatda göstərilməli olan məbləğinə nisbətən azaldılması, habelə büdcəyə çatası vergi məbləğinin hesabat təqdim etməməklə yayındırılması vergi ödəyicilərinin vergi orqanına elektron formada təqdim etdikləri məlumatlar əsasında aşkar edildikdə **(Vergi Məcəlləsi, maddə 58.1-1)** | Azaldılmış və ya yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) **25 faizi** |

| | | |
|---|---|---|
| | **QEYD:** "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən aşağıdakı mühasibat uçotu subyektlərində mühasibat uçotu elektron formada aparılmalıdır:<br>1. İri sahibkarlıq subyektləri və aşağıdakı mərhələlərə uyğun olaraq orta sahibkarlıq subyektləri:<br>• Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş maliyyə xidmətlərini göstərən şəxslər – 2024-cü il yanvarın 1-dən;<br>• telekommunikasiya xidmətləri göstərən şəxslər– 2024-cü il aprelin 1-dən;<br>• yanacaqdoldurma məntəqələrində neft və qaz məhsullarının satışı ilə məşğul olan şəxslər – 2024-cü il iyulun 1-dən;<br>• idman mərc oyunlarının operatorları – 2024-cü il oktyabrın 1-dən;<br>• yuxarıdakı bəndləri ilə əhatə olunmayan digər orta sahibkarlıq subyektləri – 2027-ci il yanvarın 1-dən.<br>2. Qanunla təsdiq edilmiş hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haqqında və digər belə sazişlər və ya qanunlar, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft-qaz fəaliyyəti haqqında qanunlar çərçivəsində fəaliyyət göstərən vergi ödəyiciləri;<br>3. İllik maliyyə hesabatlarını və ya birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dərc etməli olan publik hüquqi şəxslər (Azərbaycan Respublikasının Mərkəzi Bankı istisna olmaqla). | |
| 5 | Vergi ödəyicisi tərəfindən ƏDV üzrə qeydiyyat məcburi olduğu halda, qeydiyyat olmadan fəaliyyət göstərilməsi<br><br>**(Vergi Məcəlləsi, maddə 58.4)** | ƏDV üzrə qeydiyyat olmadan fəaliyyət göstərdiyi bütün dövr ərzində büdcəyə ödənilməli olan ƏDV məbləğinin **50 faizi** |

| | | |
|---|---|---|
| 6 | Səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı<br>1. Vergi ödəyicisinə məxsus pul vəsaitlərinin 1000 manatdan çox olan məbləğdə uçotdan gizlədilməsi və ya uçota alınmaması<br>**(Vergi Məcəlləsi, maddə 58.8.1)**<br><br>2. Malların alışını və ya mədaxilini təsdiq edən sənədlər - Vergi Məcəlləsinin 71-1.1-ci maddəsinin tələbləri nəzərə alınmaqla vergi ödəyicisinin sahibliyində olan mallara dair elektron qaimə-faktura, əvvəlcədən sifariş edilmədən təqdim edilən mallar üzrə malların təhvil-qəbul aktı, idxal gömrük bəyannaməsi və bu bəyannamə ilə bağlı hesab-faktura (invoys), bu Məcəllənin 71-2-ci maddəsində göstərilən elektron alış aktları, elektron qaimə-faktura təqdim edilənədək komissiyaya, emala və saxlamaya (məsuliyyətli mühafizəyə) götürülmüş mallara görə təhvil-qəbul aktı və qaytarılmış mallara dair malların qaytarılması aktı olmadıqda;<br>(Vergi Məcəlləsi, maddə 58.8.2)<br>Qeyd olunan sənədlər vergi nəzarəti tədbiri başlandıqdan sonra təqdim (tərtib) edildiyi halda həmin sənədlər nəzərə alınmır və maliyyə sanksiyası tətbiq edilir. **(Vergi Məcəlləsi, maddə 58.17)**<br>**Qeyd:** Bu maddənin müddəaları istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən istehsal edilən hazır məhsullara münasibətdə tətbiq edilmir. | - uçotdan gizlədilmiş və ya uçota alınmamış pul vəsaitinin 1000 manatdan çox olan hissəsinin **10 faizi**<br>- təqvim ili ərzində belə hala təkrar yol verdikdə, uçotdan gizlədilmiş və ya uçota alınmamış pul vəsaitinin 1000 manatdan çox olan hissəsinin **20 faizi**<br><br>Alıcıya malların dəyərinin **təqvim ili ərzində** belə hala<br>- birinci dəfə yol verdikdə **10 faizi**<br>- ikinci dəfə yol verdikdə **20 faizi**<br>- üç və daha çox dəfə yol verdikdə 40 faizi |
| 7 | Vergi orqanından qanunvericilikdə nəzərdə tutulan hallarda "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz" almadan sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, habelə mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslər və ailə kəndli təsərrüfatları tərəfindən | - təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqı məbləğlərinin **40 faizi** |

| | | |
|---|---|---|
| | "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz"in alınmaması **(Vergi Məcəlləsi, maddə 58.12)** | - təqvim ili ərzində belə hallara iki və daha çox dəfə yol verildikdə həmin fəaliyyət növünə görə müəyyən olunmuş aylıq sabit vergi, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqı məbləğlərinin **100 faizi** |
| 8 | Vergi Məcəlləsinə əsasən elektron qaimə-faktura təqdim edilməli olduğu halda malların elektron qaimə-faktura verilmədən təqdim edilməsi, topdansatış ticarət və istehsal obyektlərindən, habelə anbarlardan malların pərakəndə satış qaydasında rəsmiləşdirməklə təqdim edilməsi (elektron ticarət qaydasında satılan malların sifariş edilərək pərakəndə satış ticarət obyektlərinə məxsus anbarlardan təqdim edilməsi istisna olmaqla), habelə malların əvvəlcədən sifariş edilmədən təqdim edilməsi üçün malların təsərrüfat subyektindən (obyektindən) nəqliyyat vasitələrinə yüklənməsi üçün təsərrüfatdaxili yerdəyişmə qaimə-fakturasının tərtib edilmədən verilməsi (Vergi Məcəlləsi, maddə 58.13)<br>Qeyd olunan sənədlər vergi nəzarəti tədbiri başlandıqdan sonra təqdim (tərtib) edildiyi halda həmin sənədlər nəzərə alınmır və maliyyə sanksiyası tətbiq edilir. **(Vergi Məcəlləsi, maddə 58.17)** | malları təqdim edən şəxsə təqvim ili ərzində belə hala<br>- birinci dəfə yol verdikdə təqdim edilmiş malların satış qiymətinin **10 faizi**<br>- ikinci dəfə yol verdikdə **20 faizi**<br>- üç və daha çox dəfə yol verdikdə **40 faizi** |
| 9 | Aksizli malların (neft məhsulları istisna olmaqla) təsərrüfatdaxili yerdəyişməsi barədə elektron qaimə-faktura tərtib edilmədən malların bir təsərrüfat subyektindən (obyektindən) digər təsərrüfat subyektinə (obyektinə) göndərilməsi **(Vergi Məcəlləsi, maddə 58.13-1)** | elektron qaimə-faktura ilə rəsmiləşdirilməyən hər bir belə əməliyyat üçün **100 manat** |

| | | |
|---|---|---|
| | Qeyd olunan qaimə-faktura vergi nəzarəti tədbiri başlandıqdan sonra təqdim (tərtib) edildiyi halda nəzərə alınmır və maliyyə sanksiyası tətbiq edilir. **(Vergi Məcəlləsi, maddə 58.17)** | |
| 10 | Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş vergi güzəşt və azadolmalarını əldə edən şəxslər tərəfindən vergidən azad olunan gəlirlərin bəyan edilməməsi və ya azaldılması **(Vergi Məcəlləsi, maddə 58.15)** | bəyan edilməmiş və ya azaldılmış gəlirin (xərclər çıxılmadan) **6 faizi** miqdarında |
| 11 | Vergi ödəyicisi barəsində vergi nəzarəti tədbirləri əsasında əmtəəsiz əməliyyatlar çərçivəsində riskli vergi ödəyicisi olması barədə qərar qəbul edilməsi **(Vergi Məcəlləsi 58.15-1)**<br><br>**QEYD:** Bu maddə vergi ödəyicisinin riskli vergi ödəyicilərinin siyahısına daxil edilməsi və həmin siyahıdan çıxarılması üzrə qayda və şərtlərlə eyni gündə qüvvəyə minir | təqvim ili ərzində belə hallara:<br>- birinci dəfə yol verildikdə aparılmış əmtəəsiz əməliyyatın məbləğinin 10 faizi miqdarında;<br>- ikinci dəfə yol verdikdə aparılmış əmtəəsiz əməliyyatın məbləğinin **20 faizi** miqdarında;<br>- üç və daha çox dəfə yol verildikdə aparılmış əmtəəsiz əməliyyatın məbləğinin **40 faizi** miqdarında. |
| | Kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, bazarların mülkiyyətçiləri (bazarlar idarəetməyə verildikdə idarəediciləri) tərəfindən Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarının vəzifəli şəxslərinə əmlakın siyahıya alınmasına, həmin əmlakın məsul saxlamaya qoyulması üçün götürülməsinə zəruri şərait yaratmadıqda, habelə onların bu sahədə qanuni fəaliyyətlərinə maneçilik törədildikdə (Vergi Məcəlləsi 58.15-2)<br>**Qeyd:** Bu müddəa Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 16.12.2024-cü il tarixli 98-VIIQDnömrəli Qanunu qəbul edildikdən doqquz ay sonra qüvvəyə minir. | - təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə **2.000** manat<br>- təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə **4.000** manat<br>- təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə **6.000** manat |

| Hesabat və digər məlumatların təqdim edilməməsi ilə əlaqədar: | | |
|---|---|---|
| 12 | Hesabat dövrü üzrə vergi tutulan və ya vergidən azad edilən (vergiyə cəlb edilməyən) əməliyyatlar aparan, vergitutma obyektləri olan vergi ödəyicisi tərəfindən vergi hesabatının əsas olmadan müəyyən edilən müddətdə təqdim edilməməsi<br>**(Vergi Məcəlləsi, maddə 57.1)** | **40 manat** |
| 13 | - Sənədlərin (o cümlədən elektron formatda məlumatların) müəyyən edilmiş müddətlərdə vergi orqanına təqdim edilməməsi və ya biləkdən təhrif olunmaqla təqdim edilməsi,<br>- mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla, istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən istehsal olunan məhsulun vahidinə tələb olunan xammal və material sərfi normaları barədə məlumat formasının hər il yanvar ayının 31-dək elektron qaydada vergi orqanına təqdim edilməməsinə və ya təqdim edilmiş məlumat formasında təhrif olunmuş məlumatların göstərilməsi,<br>- orta və iri sahibkarlıq subyektləri tərəfindən vergi hesabatı təqdim edilərkən vergi orqanının tələbi ilə maliyyə hesabatlarının təqdim edilməməsi,<br>- vergi nəzarətinin həyata keçirilməsi və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən daxil olmuş sorğuların icrası ilə bağlı zəruri olan sənədlərin və ya onların lazımi qaydada təsdiq edilmiş surətlərinin vergi orqanının müraciətinə əsasən 10 iş günü müddətində təqdim edilməməsi,<br>- mühasibat uçotu sənədləri, o cümlədən elektron və (və ya) kağız formatda məlumatların tam oxunaqlı şəkildə 5 ildən az olmayan müddətdə üzrlü səbəb olmadan saxlanılmaması, | **1000 manat** |

| | | |
|---|---|---|
| | - kənd təsərrüfatı məhsulları bazarları və kənd təsərrüfatı kooperativi bazarları istisna olmaqla, bazarların mülkiyyətçiləri (bazarlar idarəetməyə verildikdə idarəediciləri) tərəfindən icarə müqaviləsinə xitam verilmiş və faktiki olaraq həmin obyektdə fəaliyyət göstərməyən, habelə fəaliyyətini davam etdirən vergi ödəyiciləri barədə məlumatı elektron formada hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dək uçotda olduğu vergi orqanına təqdim edilməməsi (Vergi Məcəlləsi, maddə 57.3).<br>**Qeyd:** Bu müddəa Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının 16.12.2024-cü il tarixli 98-VIIQD nömrəli Qanunu qəbul edildikdən doqquz ay sonra qüvvəyə minir . | |
| 14 | Vergi ödəyicisi tərəfindən aktivləri barədə məlumatın 10 gün ərzində vergi orqanına əsas olmadan təqdim edilməməsi<br>**(Vergi Məcəlləsi, maddə 57.2)** | **100 manat** |
| 15 | - Azərbaycan Respublikasının rezidenti ilə onunla qarşılıqlı surətdə asılı olan qeyri-rezident şəxslər, habelə həmin rezidentin başqa dövlətlərdə (ərazilərdə) yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi,<br>- qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə həmin qeyri-rezidentin özü və ya onun başqa dövlətlərdə yerləşən hər hansı nümayəndəliyi, filialı və digər bölməsi, həmin qeyri-rezidentlə qarşılıqlı asılı olan və başqa dövlətdə yerləşən hər hansı digər şəxs,<br>- Azərbaycan Respublikasının rezidenti və (və ya) qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlər üzrə transfer qiymətləri əsas götürülməklə apardığı əməliyyatların ümumi dəyəri | **6000 manat** |

| | | |
|---|---|---|
| | **500.000 manatdan** artıq olduqda və Azərbaycan Respublikasının rezidenti və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyi ilə qeyri-rezident şəxslər arasında, bu şərtlə ki:<br>- şəxslər beynəlxalq əmtəə birjalarında ticarət olunan məhsullar üzrə əməliyyat aparmış olsunlar və (və ya);<br>- Azərbaycan Respublikasının rezidenti və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinin vergi ili ərzində ümumi gəlirləri 30 milyon manatdan çox və hər bir qeyri-rezident şəxslə apardığı əməliyyatların həcminin ümumi gəlirlərdə (xərclərdə) xüsusi çəkisi 30 faizdən artıq olduğu hallarda<br>arayışın mənfəət (gəlir) vergisi bəyannaməsi üçün nəzərdə tutulan müddətlərdə təqdim edilməməsi<br>- və ya arayışlarda düzgün olmayan məlumatların göstərilməsi<br>- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilən transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi qaydalarında nəzərdə tutulmuş sənədlərin və məlumatların vergi orqanının tələbi ilə 60 gün müddətində təqdim edilməməsi<br>**(Vergi Məcəlləsi, maddə 57.4).** | |
| 16 | İdxal edilmiş mallar barədə nəzərdə tutulan formada və qaydada təqdim edilməməsi və ya təhrif olunmuş formada təqdim edilməsi<br>**(Vergi Məcəlləsi, maddə 57.5).** | idxal edilmiş malların hesab-faktura (invoys) dəyərinin və ya onun təhrif olunmaqla təqdim edilmiş hissəsinin<br>- **mikro sahibkarlıq** subyektlərinə münasibətdə 2 faizi miqdarında<br>- **digər şəxslərə** münasibətdə 5 faizi miqdarında |

| | | |
|---|---|---|
| 17 | -Transmilli şirkətlər qrupunun maliyyə ilində məcmu gəliri 750 milyon avronun manat ekvivalentindən çox olduqda, transmilli şirkətlər qrupuna daxil olan və Azərbaycan Respublikasının rezidenti olan müəssisələr tərəfindən elektron hesabatın və (və ya) bildirişin müəyyən edilmiş müddətdə, formada və qaydada təqdim edilməməsi **(Vergi Məcəlləsi, maddə 57.1-2).** | **10 000 manat** |
| 18 | Taksi sifarişi operatorları tərəfindən malik olduqları informasiya sistemi vasitəsilə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilən aylıq məlumatların hər ay başa çatdıqdan sonra növbəti ayın 20-dək İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə ötürülməməsi və ya təhrif olunmuş formada təqdim edilməsi **(Vergi Məcəlləsi, maddə 57.8)** | **1000 manat** |

| Əhali ilə pul hesablaşmalarının aparılması qaydalarının pozulması ilə əlaqədar: | | |
|---|---|---|
| 19 | Topdansatış ticarət fəaliyyətinin (malların alıcıya onun sahibkarlıq fəaliyyəti məqsədləri üçün və yalnız Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada elektron-qaimə faktura təqdim edilməklə həyata keçirildiyi ticarət fəaliyyətinin) həyata keçirilməsi halı istisna olmaqla, vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərlə (əhali ilə) pul hesablaşmalarının aparılması qaydalarının pozulması, yəni<br>- NKA və ya ciddi hesabat blankları tətbiq edilmədən (NKA quraşdırılmadan, qanunvericiliklə müəyyən edilmiş formalara uyğun ciddi hesabat blankları olmadan və ya nağd ödənilmiş məbləği mədaxil etmədən),<br>- vergi orqanlarında uçota alınmamış və ya texniki tələblərə cavab verməyən, o cümlədən Vergi Məcəlləsinin 50.8-ci maddəsində sadalanan tələblərə cavab verməyən çek təqdim edən NKA-dan istifadə etməklə,<br>- qanunvericiliklə müəyyən olunmuş ciddi hesabat blanklarından istifadə etmədən və ya müəyyən olunmuş qaydada təsdiq olunmuş formalara uyğun olmayan ciddi hesabat blanklarından istifadə etməklə əhali ilə pul hesablaşmalarının aparılması,<br>- POS-terminalların quraşdırılması məcburi olan obyektlərdə POS-terminalların quraşdırılmaması və POS-terminallar quraşdırılmış obyektlərdə nağdsız ödənişlərin qəbulundan imtina edilməsi,<br>- alıcıya təqdim edilməli olan çekin, bankların valyuta mübadilə şöbələri tərəfindən müştəriyə təqdim edilməli olan bank çıxarışlarının və ya digər ciddi hesabat blanklarının verilməməsi və ya ödənilmiş məbləğdən aşağı məbləğ göstərilməklə verilməsi, NKA-dan istifadə edilməsi dayandırıldıqda əhali ilə pul hesablaşmalarının qeydiyyatının aparılması qaydalarının pozulması (Vergi Məcəlləsi, maddə 58.7)<br>**Qeyd:** Vergi ödəyicisi tərəfindən eyni əməliyyat üzrə bu Məcəllənin 58.7-ci maddəsində nəzərdə tutulan hesablaşma qaydalarının pozulması hallarına eyni vaxtda yol verildikdə, həmin qanun pozuntularına bir pozuntu halı kimi baxılır və maliyyə sanksiyası bir dəfə tətbiq edilir. | - təqvim ili ərzində belə hallara **birinci dəfə** yol verildikdə **1.000** manat<br>- təqvim ili ərzində belə hallara **ikinci dəfə** yol verildikdə **3.000** manat<br>- təqvim ili ərzində belə hallara **üç və daha çox** dəfə yol verildikdə **6.000** manat |

<table>
<tr><th colspan="3">Nağdsız hesablaşmaların aparılması qaydalarının pozulması ilə əlaqədar:</th></tr>
<tr><td>20</td><td>“Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərinin pozulmasına görə aşağıdakı vergi ödəyicilərinə:<br>həmin Qanunun<br>3.3-cü maddəsinin (ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatdan artıq olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği əvvəlki təqvim ayında təqdim edilən mal, iş və xidmətlər üzrə dövriyyənin (ƏDV daxil olmaqla) 2 faizindən, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği on beş min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər nağd qaydada həyata keçirildikdə),<br>Qeyd: Bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı mülki hüquqi xarakterli müqavilələr əsasında mövsümi işlərə cəlb edilən fiziki şəxslər üzrə gündəlik hər bir belə fiziki şəxs üçün nağd qaydada ödənilə bilən məbləğin yuxarı həddi iyirmi manat məbləğində müəyyən edilir və həmin məbləğ bu Qanunun 3.3-cü maddəsi ilə müəyyən edilmiş nağd əməliyyat həddinə daxil edilmir.<br>Həmin Qanunun 3.4.4-cü maddəsinin (əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqları (o cümlədən, işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən, birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatların üzrə ödənişlər nağd qaydada həyata keçirildikdə) və<br>həmin Qanunun 3.4.7-ci maddəsinin (dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi) üzrə ödənişlər nağd</td><td>Qanun pozulmaqla aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala<br>- birinci dəfə yol verdikdə 10 faizi miqdarında<br>- ikinci dəfə yol verdikdə 20 faizi miqdarında<br>- üç və daha çox dəfə yol verdikdə 40 faizi</td></tr>
</table>

| | | |
|---|---|---|
| | qaydada həyata keçirildikdə.) tələblərinin pozulmasına görə ödənişi həyata keçirən vergi ödəyicisinə<br>(Vergi Məcəlləsi, maddə 58.7-1.1)<br>həmin Qanunun 3.4.1-ci maddəsinin (lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi) tələblərini pozmaqla pul vəsaitlərini nağd qaydada qəbul edən lizinq verənə, kreditləri nağd qaydada verən kredit verənə<br>**(Vergi Məcəlləsi, maddə 58.7-1.2)**<br><br>həmin Qanunun 3.4.2-ci maddəsinin ("Sığorta fəaliyyəti haqqında" və "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş ödənişlər) tələblərini pozmaqla nağd qaydada sığorta ödənişlərini edən və sığorta haqlarını nağd qaydada qəbul edən sığortaçıya və ya təkrarsığortaçıya<br>**(Vergi Məcəlləsi, maddə 58.7-1.3)**<br><br>həmin Qanunun 3.4.3-cü maddəsinin (dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar) tələblərini pozmaqla xidmət haqlarını və digər yığımları nağd qaydada qəbul edən şəxsə<br>**(Vergi Məcəlləsi, maddə 58.7-1.4)**<br><br>həmin Qanunun 3.4.5-ci maddəsinin (stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsi) tələblərini pozmaqla stasionar telefon və kommunal xidmətlərin haqqını nağd qaydada qəbul edən şəxsə<br>**(Vergi Məcəlləsi, maddə 58.7-1.5)**<br><br>həmin Qanunun 3.4.6-cı maddəsinin (faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaların ödənilməsi və qaytarılması) tələblərini pozmaqla faizsiz pul vəsaitlərini (vergi ödəyicisi olmayan şəxslər | |

| | | |
|---|---|---|
| | tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaları nağd qaydada ödəyən və qəbul edən şəxsə<br>(Vergi Məcəlləsi, maddə 58.7-1.6)<br><br>həmin Qanunun 3.4.8-ci maddəsinin (təhsil haqlarının ödənilməsi) tələblərini pozmaqla təhsil haqlarını nağd qaydada qəbul edən şəxsə<br>(Vergi Məcəlləsi, maddə 58.7-1.7)<br><br>həmin Qanunun 3.4.9-cu maddəsinin (turagentlərə ödəmələr) tələblərini pozmaqla nağd qaydada ödəmələri qəbul edən şəxsə<br>(Vergi Məcəlləsi, maddə 58.7-1.8)<br><br>həmin Qanunun 3.4.10-cu maddəsinin (ixtisaslaşdırılmış qaydada, o cümlədən komisyon və ticarət təşkilatları vasitəsilə avtomobil satışı üzrə ödənişlər),<br><br>həmin Qanunun 3.4.11-ci maddəsinin (pərakəndə satış qaydasında təqdim edilən malların (avtomobillər və qiymətli daşlar, qiymətli metallar, o cümlədən qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış məmulatlar və mədəniyyət məhsulları istisna olmaqla) satışı üzrə bir əməliyyat çərçivəsində (bir nəzarət-kassa aparatının çeki üzrə) 4.000 manatdan artıq olan ödənişlər) tələblərini pozmaqla, ödənişi nağd qaydada qəbul edən şəxsə<br><br>həmin Qanunun 3.4.15-ci maddəsinin (qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və qiymətli metallardan hazırlanmış məmulatların və mədəniyyət məhsullarının alqı-satqısı üzrə ümumi məbləği on beş min manatdan artıq olan ödənişlər) tələblərini pozmaqla, ödənişi nağd qaydada qəbul edən şəxsə<br><br>həmin Qanunun 3.4.16-cı maddəsinin (rəsmi reyestrlərdə qeydiyyata alınmış daşınar əmlakın | |

| | | |
|---|---|---|
| | alqı-satqısı üzrə (avtomobil satışı istisna olmaqla) ümumi məbləği on beş min manatdan artıq olan ödənişlər) tələblərini pozmaqla, ödənişi nağd qaydada qəbul edən şəxsə<br>**(Vergi Məcəlləsi, maddə 58.7-1.9)**<br><br>həmin Qanunun 3.4.12-ci maddəsinin (tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində (bir nəzarət-kassa aparatının çeki üzrə) beş yüz manatdan artıq olan ödənişlər) tələblərini pozmaqla, tibbi xidmətlərin dəyərini nağd qaydada qəbul edən tibb müəssisəsinə və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərə<br>**(Vergi Məcəlləsi, maddə 58.7-1.10)**<br><br>həmin Qanunun 3.4.13-cü maddəsinin (“Lotereyalar haqqında” və “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının qanunları ilə tənzimlənən münasibətlər üzrə müəyyən edilmiş ümumi məbləği üç min manatdan artıq olan uduşlar (mükafatlar) və oyunlarda iştirakla bağlı pul ödənişləri (pul qoyuluşları)) tələblərini pozmaqla, uduşları (mükafatları) nağd qaydada verən və ya oyunlarda iştirakla bağlı pul ödənişlərini (pul qoyuluşlarını) nağd qaydada qəbul edən şəxsə<br>**(Vergi Məcəlləsi, maddə 58.7-1.11)** | |

| | | |
|---|---|---|
| **İşəgötürənin (vergi orqanında uçotda olan sifarişçinin) öhdəliklərinin pozulması ilə əlaqədar:** | | |
| 21 | Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə, habelə Vergi Məcəlləsinin 220.10-cu maddəsinə uyğun olaraq aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyətlə məşğul olan şəxslərin, foto, audio-video sahəsində məşğul olan şəxslərin və iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslərin (ofisiantın) fəaliyyətə başlayanadək, "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz" əldə edilmədən işlərin yerinə yetirilməsinə cəlb edilməsinə görə vergi orqanında uçotda olan sifarişçiyə<br>**(Vergi Məcəlləsi, maddə 58.10)** | Hər bir belə şəxs üzrə təqvim ili ərzində belə hala<br>- **birinci dəfə** yol verdikdə **2.000** manat<br>- **ikinci dəfə** yol verdikdə **4.000** manat<br>- üç və daha çox dəfə yol verdikdə **6.000** manat |
| **Aksiz markası ilə markalanma və məcburi nişanlama ilə əlaqədar qanunvericiliyin tələblərinin pozulması ilə əlaqədar:** | | |
| 22 | Vergi Məcəlləsinin 194.2-ci maddəsində nəzərdə tutulmuş plombların vurulması və açılması arasındakı müddətdə nəzarət-ölçü cihazlarının göstəricilərində dəyişikliklərin edilməsi, texnoloji avadanlıqlardakı plombların zədələnməsi, istehsal olunmuş məhsulların tam uçota alınmaması, aksiz markalarının və ya məcbur nişanlamanın inventarizasiyasında kənarlaşmalara yol verilməsi, eləcə də Vergi Məcəlləsinin 191.2-ci maddəsinin tələblərini pozmaqla hazır məhsulun istehsal sahəsindən kənara çıxarılması<br>**(Vergi Məcəlləsi, maddə 58.9)** | **5.000 manat** |

| | | |
|---|---|---|
| 23 | Aksiz markası ilə markalanmalı olan malların belə marka olmadan, habelə məcburi nişanlama ilə nişanlanmalı malların məcburi nişanlama ilə nişanlanmadan satılması, satış məqsədi ilə saxlanılması, istehsal binasının hüdudlarından kənara buraxılması<br>**(Vergi Məcəlləsi, maddə 58.14)** | Təqvim ili ərzində belə hallara<br>- **birinci dəfə** yol verildikdə həmin malların bazar qiyməti ilə dəyərinin **1 misli**<br>- **iki və daha çox dəfə** yol verildikdə həmin malların bazar qiyməti ilə dəyərinin **2 misli** |
| | **Kredit  və elektron pul təşkilatlarına və maliyyə institutlarına tətbiq olunan maliyyə sanksiyaları:** | |
| 24 | 1. Kredit, elektron pul təşkilatları və bank əməliyyatlarını aparan şəxslərə: Vergi ödəyicisinə hesablar açdıqda həmin hesabların vergi orqanında qeydiyyata alınması üçün elektron məlumatın vergi orqanına təqdim edilməməsi<br>**(Vergi Məcəlləsi, maddə 60.1.1)** | Hər açılmış hesab üçün<br>**400 manat** |
| | Vergi orqanında qeydiyyata alınmamış hesablar üzrə və ya açılmış hesabın vergi orqanı tərəfindən avtomatlaşdırılmış qaydada qeydiyyata alınması barədə qeydiyyat bildirişi daxil olanadək məxaric əməliyyatlarının (dövlət büdcəsinə və məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları üzrə büdcədənkənar fondlara məxaric əməliyyatları istisna olmaqla) aparılması<br>**(Vergi Məcəlləsi, maddə 60.1.1)** | Aparılmış məxaric əməliyyatının<br>**50 faizi** |
| | 3. Sahibkarlıq fəaliyyətini göstərən hüquqi və fiziki şəxslərin milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsait olduqda, vergilərin ödənilməsinə dair  ödəmə tapşırıqlarının və vergi orqanının sərəncamlarının icra edilməməsi<br>**(Vergi Məcəlləsi, maddə 60.1.2):** | Vaxtında icra edilməyən ödəmə tapşırıqlarında göstərilən məbləğlərin və ya növbəliyi pozulmaqla aparılan əməliyyatların məbləğlərinin **50 faizi** |

| | | |
|---|---|---|
| | 3.1. Vergi ödəyicisinin vergilərin ödənilməsinə dair tapşırıqlarının vaxtında icra edilməməsinə, habelə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş ödənişlərin növbəliyi pozulmaqla icra edilməsi<br><br>3.2. Vergilər üzrə borcların, faizlərin və maliyyə sanksiyalarının vergi ödəyicisinin hesabından tutulması haqqında vergi orqanının sərəncamlarının daxil olduğu gündən 3 iş günü müddətində icra edilməməsi, habelə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş ödənişlərin növbəliyi pozulmaqla icra edilməsi | vergi orqanının icra edilməyən sərəncamlarında göstərilən məbləğlərin və ya növbəliyi pozulmaqla aparılan əməliyyatların məbləğlərinin **50 faizi**<br><br>**QEYD:** 3.1-ci və 3.2-ci hallarda növbəliyi pozulmaqla aparılan əməliyyatların məbləğlərinə əsasən tətbiq edilən maliyyə sanksiyasının məbləği həmin ödəmə tapşırıqlarında və ya vergi orqanının sərəncamlarında göstərilən məbləğin **50 faizindən** çox olmamalıdır. |
| | 3.3. Vergi Məcəlləsinin 65.2-ci maddəsi ilə müəyyən edilən həcmdə (borc məbləğinin 105 faizi) pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında vergi orqanlarının sərəncamlarının daxil olduğu vaxt icra edilməməsi | - vergi orqanının icra edilməyən sərəncamında göstərilən məbləğlərin **50 faizi** |
| | 3.4. Vergi Məcəlləsinin 65.7-1-ci maddəsinin tələblərinin pozulmasına görə - | vergi orqanının sərəncamında göstərilən məbləğlərin **50 faizi** |
| 25 | Maliyyə institutlarına<br>1. Maliyyə institutları tərəfindən hüquqi və fiziki şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə, Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməməsi<br>**(Vergi Məcəlləsi, maddə 60.3.1)** | hər belə hesab və ya əməliyyat üçün **500 manat** |

| | | |
|---|---|---|
| | 2. Maliyyə institutları tərəfindən təqdim edilməsi nəzərdə tutulan Vergi Məcəlləsinin 16.1.11-4-cü maddəsində göstərilən elektron hesabatın müəyyən edilmiş qaydada və müddətdə təqdim edilməməsi<br>**(Vergi Məcəlləsi, maddə 60.3.2)** | **10.000 manat** |
| | 3. Vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, bu dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatları Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən müəyyən edilən hədlərdə və qaydada Dövlət Vergi Xidməti vasitəsilə həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına təqdim edilməməsi<br>**(Vergi Məcəlləsi, maddə 60.3.3)** | hesaba mədaxil olunmuş vəsaitin ümumi məbləğinin **30 faizi**<br><br>bu hesablar üzrə mədaxil əməliyyatı aparılmadıqda isə hər belə hesab üçün **400 manat** |
| | 4. Vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinin pozulmasının həmin müqavilələrin tərəfi olan digər dövlətin səlahiyyətli orqanının bildirişinə əsasən aşkar olunması<br>**(Vergi Məcəlləsi, maddə 60.3.4)** | hər belə hesab üçün **1000 manat** |

| Digər maliyyə sanksiyaları və faizlər | | |
|---|---|---|
| 26 | Vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması üçün kredit və elektron pul təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə sərəncamın verildiyi tarixdən, kredit və elektron təşkilatlarında və ya bank əməliyyatları aparan şəxslərdə hesabları olmadığı halda isə hesablanmış və ya yenidən hesablanmış vergilərin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsinə dair vergi orqanı tərəfindən göndərilmiş bildirişdə göstərilən **5 gün** müddətinin başa çatdığı tarixdən vergi ödəyicisi tərəfindən onun kassasından Mülki Məcəllədə nəzərdə tutulmuş hesabdan pul vəsaitinin silinməsi növbəliliyi pozulmaqla nağd qaydada məxaric əməliyyatlarının aparılması **(Vergi Məcəlləsi, maddə 58.3)** | Aparılmış məxaric əməliyyatlarının **50 faizi** |
| 27 | Vergi Məcəlləsinin 175.1.3-cü maddəsinə müvafiq olaraq Vergi Məcəlləsinin 175.8-ci maddəsində göstərilən vergi ödəyicisi (ƏDV ödəyiciləri, habelə ƏDV-nin məqsədləri üçün qeydiyyatda olmayan səhmlərinin və paylarının 50 faizindən çoxu dövlətə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları) tərəfindən malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən 1 iş günü müddətində ƏDV məbləğinin ödənilməməsi (Vergi Məcəlləsinin 177.5-ci maddəsinə müvafiq olaraq ƏDV qeydiyyatının keçmiş tarixə aparıldığı hal üzrə ƏDV məbləğinin 1 iş günü müddətində ödənilməməsi istisna olmaqla) **(Vergi Məcəlləsi, maddə 58.6)** | Vaxtında ödənilməmiş ƏDV məbləğinin **50 faizi** |

| | | |
|---|---|---|
| 28 | Sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident ödəniş xidməti təchizatçılarında açılmış hesaba (rezident banklar tərəfindən qeyri-rezident banklarda açılmış müxbir hesablar istisna olmaqla) dair forması İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilmiş məlumatın bu hesablar üzrə əməliyyatlar aparıldığı tarixədək vergi orqanına təqdim edilməməsi<br>**(Vergi Məcəlləsi, maddə 58.11)** | mədaxil edilmiş pul vəsaitinin<br>**100 faiz** |
| 29 | Vergi və ya cari vergi ödəməsi Vergi Məcəlləsi ilə müəyyən edilmiş müddətdə ödənilməməsi<br>**(Vergi Məcəlləsi, maddə 59.1)** | Ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün, ancaq bir ildən çox olmamaq şərti ilə, vergi ödəyicisindən və ya vergi agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin **0,1 faizi** miqdarında faiz tutulur.<br>Bu faiz səyyar vergi yoxlaması nəticəsində aşkar edilmiş vaxtında ödənilməmiş vergi məbləğlərinə həmin vergi məbləğlərinin vergi ödəyicisinə hesablandığı gündən tətbiq edilir. |

| **II** | **Vergi hüquq pozuntularına görə inzibati xətaların törədilməsi halları** | **İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilən inzibati cərimələr** |
|---|---|---|
| 1 | 1. Lisenziya olmadan özəl tibbi fəaliyyətlə və ya əczaçılıqla məşğul olma<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 210.1) | **Fiziki şəxslərə** 2.000 manatdan **3.000** manatadək<br>**Vəzifəli şəxslərə** 5.000 manatdan **10.000** manatadək<br>**Hüquqi şəxslərə** 20.000 manatdan **30.000** manatadək |
| | 2. Qanunvericiliklə müəyyən edilmiş qaydada verilən müvafiq diplom və ya xüsusi icazə olmadan xalq təbabəti ilə məşğul olma<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 210.2) | 400 manatdan **600** manatadək |
| 2 | Qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa görə, yəni:<br>- Dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün lisenziya tələb olunduğu hallarda belə lisenziya almadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma, yaxud<br>- Lisenziyada nəzərdə tutulmuş şərtlərin pozulması ilə və ya xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 398)<br><br>Bu əməllər xeyli məbləğdə (50.000 manatdan artıq) ziyan vurduqda və ya həmin məbləğdə gəlir əldə etməklə törədildikdə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 192.1-ci və 192.2-ci maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur.<br>Bu əməli ilk dəfə törətmiş şəxs inzibati xəta nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və ya inzibati xəta nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə inzibati məsuliyyətdən azad olunur. | İnzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin)<br>**2 mislindən 4 mislinədək** |

| | | |
|---|---|---|
| 3 | Vəkil adından qanunsuz istifadəyə görə, yəni: "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada vəkil statusunu əldə etməmiş şəxs tərəfindən gəlir əldə etməklə vəkil adından istifadə olunması<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 399) | **Fiziki şəxslərə** 200 manatdan **300** manatadək<br>**Vəzifəli şəxslərə** 600 manatdan **800** manatadək |
| 4 | Azərbaycan Respublikasının ərazisindən qumar oyunlarında iştirak üçün imkanların yaradılması, o cümlədən qumar oyunlarının oynanıldığı virtual mühitə çıxışın təmin edilməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 401.1)<br>Qumar oyunlarında iştirak üçün biletlərin (və ya biletə bərabər tutulan digər iştirak hüququnun) satışının təşkili və (və ya) satışı<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 401.2)<br>Qumar oyunlarında iştirak üçün mərclərin qəbul edilməsi, pul vəsaitlərinin, əşyaların və qeyri-maddi əmlak nemətlərinin qəbulu, köçürmələrin aparılması, uduşların ödənilməsi, uduşların, mükafatların və ya digər gəlirin verilməsi, bunların təşkili və bunlarla əlaqədar xidmətlərin göstərilməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 401.3)<br>Qumar oyunlarının təşkili, keçirilməsi, iştirak üçün biletlərin (və ya biletə bərabər tutulan digər iştirak hüququnun) satışı ilə, qumar oyunlarında iştirakla bağlı müştərinin ödəniş tapşırıqlarının və ya bank hesabı üzrə digər əməliyyatlarının bank əməliyyatları aparan şəxslər tərəfindən icrası (aparılması)<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 401.4)<br>Qeyd: “Qumar oyunları” dedikdə pul vəsaitləri, maddi və sair nemət (uduş) barəsində oynanılan və uduşu qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan oyunlar (o cümlədən mərclər) başa düşülür.<br>“Lotereyalar haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada keçirilən lotereyalara və “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada keçirilən idman mərc oyunlarına bu maddənin qüvvəsi şamil edilmir. | Fiziki şəxslər **3.000 manat**<br>Vəzifəli şəxslər **7.000 manat**<br>Hüquqi şəxslər **40.000 manat** |

| | | |
|---|---|---|
| 5 | Qumar oyunlarının və ya belə oyunların təşkilatçısının (operatorunun) və satıcısının, o cümlədən keçirilməsi qadağan edilmiş və ya keçirilmə hüququ əldə edilməmiş stimullaşdırıcı lotereyaların və qeydiyyata alınmamış digər lotereyaların reklamı<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 428.9) | **Fiziki şəxslər 3.000 manat**<br>**Vəzifəli şəxslər 7.000 manat**<br>**Hüquqi şəxslər 40.000** |
| 6 | **Lotereyalar və idman mərc oyunları haqqında qanunvericiliyin pozulmasına görə, yəni:**<br><br>- Stimullaşdırıcı lotereyanın keçirilməsinin dayandırılması və ya ona xitam verilməsi haqqında Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin qərarının qəbul edilməsi barədə bildiriş aldıqdan sonra stimullaşdırıcı lotereyada iştirak etmək üçün lotereya təşkilatçısı tərəfindən istənilən formada təkliflərin edilməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 429.0.2)<br>- Lotereyaların təşkili və keçirilməsi sahəsində lotereya təşkilatçısı tərəfindən "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 429.0.3)<br>-İdman mərc oyunlarının təşkili və keçirilməsi sahəsində idman mərc oyunlarının operatoru tərəfindən “Bədən tərbiyəsi və idman haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 429.0.4) | **Fiziki şəxslər 800 manatdan 900 manatadək**<br>**Vəzifəli şəxslər 1.000 manatdan 2.000 manatadək**<br>**Hüquqi şəxslər 8.000 manatdan 9.000 manatadək** |
| 7 | -İdman mərc oyunlarının satıcısı tərəfindən yetkinlik yaşına çatmayanların idman mərc oyunlarında birbaşa və ya dolayı iştirakına yol verilməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 429.0.5) | **1.000 manat** |

| | | |
|---|---|---|
| 8 | Yalançı sahibkarlığa görə, yəni<br>kredit almaq, rüsumlardan azad olmaq və ya digər əmlak mənfəəti əldə etmək, yaxud qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədi ilə sahibkarlıq fəaliyyəti həyata keçirmək niyyəti olmadan müəssisə və digər hüquqi şəxsin yaradılması<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 402)<br><br>Bu əməllər xeyli məbləğdə (50.000 manatdan artıq) ziyan vurduqda və ya həmin məbləğdə gəlir əldə etməklə törədildikdə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 193.1-ci və 193.2-ci maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur.<br>Bu əməli ilk dəfə törətmiş şəxs inzibati xəta nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə və ya inzibati xəta nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürdükdə inzibati məsuliyyətdən azad olunur. | İnzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin)<br>**2 mislindən 4 mislinədək** |
| 9 | Hüquqi şəxslərin dövlət qeydiyyatı zamanı yanlış məlumatların verilməsinə görə, yəni:<br>hüquqi şəxs statusu almaq istəyən qurumun, xarici hüquqi şəxsin nümayəndəlik və ya filialının dövlət qeydiyyatına alınması, habelə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxsin nümayəndəliyinin və ya filialının və digər qurumlarının dövlət reyestrinə daxil edilməsi, eləcə də təsis sənədlərində edilmiş dəyişikliklərin və reyestrdə qeydə alınmış faktların sonrakı dəyişikliyinin dövlət qeydiyyatına alınması zamanı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə bilavasitə tabe olan vergi orqanlarına yanlış məlumatların verilməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 403) | Fiziki şəxslər **700 manat**<br>Hüquqi şəxslər **4.000 manat** |

| | | |
|---|---|---|
| 10 | Ləğvetmə zamanı bilə-bilə yalandan hüquqi şəxsin bütün kreditorlarının tələblərini qarşılamaq üçün ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanatın qəbul edilməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 404) | Vəzifəli şəxslər<br>**1.000 manat** |
| 11 | Hüquqi şəxslərin dövlət reyestri üçün zəruri məlumatların verilməməsinə görə, yəni:<br>hüquqi şəxslərin, habelə xarici dövlətlərin hüquqi şəxslərinin Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinin təsis sənədlərində edilmiş dəyişikliklərin və bu qurumlara dair qeydə alınmış faktların sonrakı dəyişikliyinin qeydiyyata alınması üçün "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə və qaydada Dövlət Vergi Xidmətinə bilavasitə tabe olan vergi orqanlarına, habelə Naxçıvan Muxtar Respublikasının Dövlət Vergi Xidmətinə, Ədliyyə Nazirliyinə, Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrinə və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə və Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinə müraciət olunmaması<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 405) | **Vəzifəli şəxslər 1.000 manatdan 2.000 manatadək**<br>**Hüquqi şəxslər 2.500 manatdan 3.000 manatadək** |
| 12 | Saxta müflisləşməyə görə, yəni:<br>kommersiya təşkilatının rəhbəri, mülkiyyətçisi və ya fərdi sahibkar tərəfindən kreditorlara olan borcun ödənilməsini təxirə salmaq və ya möhlət almaq və ya borcun azaldılmasına nail olmaq, yaxud borcu ödəməkdən yayınmaq üçün kreditorları aldatmaq məqsədi ilə özünü bilə-bilə yalandan ödəmə qabiliyyəti olmayan elan etmə (İnzibati Xətalar Məcəlləsi, maddə 406)<br>Bu əməllər xeyli məbləğdə (50.000 manatdan artıq) ziyan vurduqda və ya həmin məbləğdə gəlir əldə etməklə törədildikdə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 212.1-ci və 212.2-ci maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur. | İnzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) **2 mislindən 4 mislinədək** |

| | | |
|---|---|---|
| 13 | Qəsdən müflisləşməyə görə, yəni:<br>kommersiya təşkilatının rəhbəri, mülkiyyətçisi və ya fərdi sahibkar tərəfindən özünün, yaxud digər şəxslərin mənafeyi naminə qəsdən ödəmə qabiliyyətsizliyinin yaradılması və ya artırılması<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 407)<br><br>Bu əməllər xeyli məbləğdə (50.000 manatdan artıq) ziyan vurduqda və ya həmin məbləğdə gəlir əldə etməklə törədildikdə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 211.1-ci və 211.2-ci maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olur. | İnzibati xəta nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin)<br>**2 mislindən 4 mislinədək** |
| 14 | Valyuta tənzimi qaydalarının pozulmasına görə, yəni:<br>1. Valyuta tənzimi haqqında Azərbaycan Respublikası qanunvericiliyini pozmaqla, valyuta sərvətlərinin ictimai yerlərdə alınıb-satılması və ya dəyişdirilməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 430.1) | İnzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaiti məbləğinin **40 faizindən 80 faizinədək** |
| | 2. Valyuta sərvətlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 430.2) | İnzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaiti məbləğinin 40 faizindən **80 faizinədək** |
| | 3. Müvəkkil banklar və valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən müştərilərin xarici valyuta əməliyyatlarının qanunvericiliklə müəyyən olunmuş qaydalarının pozularaq aparılması<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 430.3) | Vəzifəli şəxslər inzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaiti məbləğinin **10 faizindən 20 faizinədək**<br>Hüquqi şəxslər inzibati xətanın obyekti olmuş valyuta vəsaiti məbləğinin **20 faizindən 30 faizinədək** |
| | 4. Avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri | Vəzifəli şəxslər inzibati xətanın bilavasitə obyekti olmuş valyuta vəsaiti məbləğinin **10 faizindən 20 faizinədək** |

| | | |
|---|---|---|
| | qaytarılmaması<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 430.4) | Hüquqi şəxslər inzibati xətanın obyekti olmuş valyuta vəsaiti məbləğinin **20 faizindən 30 faizinədək** |
| 15 | Nəzarət markası ilə markalanmalı olan malların, məmulatların və məlumat materiallarının belə nəzarət markası olmadan satış və yayılma məqsədi ilə saxlanması, istehsal binasının hüdudlarından kənara çıxarılması, satılması və ya digər üsullarla yayılması<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 451)<br><br>Bu maddədə nəzərdə tutulmuş inzibati xəta haqqında işə baxılarkən nəzarət markası olmayan malların, məmulatların və məlumat materiallarının hər birinə görə hesablanaraq tətbiq edilən inzibati cərimənin ümumi məbləği İnzibati Xətalar Məcəlləsinin 25.4-cü maddəsində nəzərdə tutulmuş məbləğdən, yəni fiziki şəxslərdən alınan inzibati cərimənin məbləği 5.000 manatdan, vəzifəli şəxslərdən alınan inzibati cərimənin məbləği 10.000 manatdan, hüquqi şəxslərdən alınan inzibati cərimənin məbləği isə 50.000 manatdan artıq ola bilməz. | Nəzarət markası olmayan mallar, məmulatlar və məlumat materialları müsadirə edilməklə, onların hər birinə görə:<br>Fiziki şəxslər 50 manat<br>Vəzifəli şəxslər 100 manat<br>Hüquqi şəxslər 150 manat |
| 16 | Az miqdarda, yəni 50.000 manatadək olan məbləğdə vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 460)<br><br>Bu əməli ilk dəfə törətmiş şəxs inzibati xəta nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə inzibati məsuliyyətdən azad olunur. | İnzibati xətanın bilavasitə obyekti olmuş vergilərin və ödənişlərin məbləğinin 30 faizindən 70 faizinədək |
| 17 | Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas ixrac boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər çərçivəsində fəaliyyət üzrə vergi hesabatlarının əsas olmadan müəyyən edilən müddətdə Dövlət | Vəzifəli şəxslər<br>**50 manat** |

| | | |
|---|---|---|
| | Vergi Xidmətinə təqdim edilməməsi (həmin sazişlərdə başqa qaydalar nəzərdə tutulduğu hallar istisna olmaqla)<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 461.1) | |
| 18 | Vergi ödəyicisi kimi qeydiyyatda olmayan şəxslər tərəfindən vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında xarici dövlətlərdən daxil olmuş məlumat mübadiləsi üzrə sorğuların cavablandırılması üçün tələb olunan məlumat və sənədlərin müəyyən edilən müddətdə təqdim edilməməsi və ya bilərəkdən təhrif olunmaqla təqdim edilməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 461.1-1) | Fiziki şəxslər **50 manat**<br>Hüquqi şəxslər **100 manat** |
| 19 | "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada dövlət rüsumunun tutulması barədə hesabatın Dövlət Vergi Xidmətinə təqdim edilməməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 461.2) | Vəzifəli şəxslər **50 manat** |
| 20 | Dövlət rüsumunun ödənilməsi qaydalarının pozulması, yəni:<br>Dövlət rüsumunu tutan səlahiyyətli vəzifəli şəxs tərəfindən dövlət rüsumunun düzgün tutulmaması, yaxud dövlət büdcəsinə vaxtında və ya tam ödənilməməsi<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 467) | Vəzifəli şəxslər 500 manatdan **700** manatadək |

| | | |
|---|---|---|
| 21 | Dini etiqad azadlığı haqqında qanunvericiliyin pozulmasına, yəni:<br>Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırmadan vətəndaşların təhsil almaq üçün xarici ölkələrin dini tədris müəssisələrinə göndərilməsinə, dini tədris müəssisələri tələbələrinin və müəllimlərinin, habelə din xadimlərinin və mütəxəssislərinin mübadiləsinə;<br>“Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada satışına razılıq verilmiş dini təyinatlı ədəbiyyatın (kağız və ya elektron daşıyıcılarında), audio və ya videomaterialların, mal və məmulatların, yaxud dini məzmunlu başqa məlumat materiallarının Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin razılığı ilə yaradılan ixtisaslaşdırılmış satış məntəqələrindən kənarda satılması<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 516.0.2) | İnzibati xətanın bilavasitə obyekti olmuş ədəbiyyat nümunələri, mal və məmulatlar və materiallar müsadirə edilməklə, **Vətəndaşlar** 2.000 manatdan **2.500** manatadək **Vəzifəli şəxslər** 8.000 manatdan **9.000** min manatadək **Hüquqi şəxslər** 20.000 manatdan **25.000** manatadək **Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər** 2.000 manatdan **2.500** manatadək məbləğdə **cərimə edilməklə** Azərbaycan Respublikasının **hüdudlarından** kənara inzibati qaydada **çıxarılır.** |
| 22 | Vergi xidməti sahəsində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin vəzifəli şəxslərinin qanuni tələblərinin yerinə yetirilməməsi (sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerlərə gəlməklə aparılan yoxlamalara münasibətdə İnzibati Xətalar Məcəlləsinin 602.4-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olunmaqla)<br>(İnzibati Xətalar Məcəlləsi, maddə 545) | **Fiziki şəxslərə** 50 manatdan **100** manatadək **Vəzifəli şəxslərə** 350 manatdan **500** manatadək |
| 23 | “Lisenziyalar və icazələr” haqqında Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş məlumatların həmin qanunla müəyyən edilmiş müddətdə və qaydada lisenziya və icazə verən orqan tərəfindən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və ya müvafiq olaraq, Naxçıvan Muxtar | **Vəzifəli şəxslər** 500 manatdan **1.000** manatadək |

| | | |
|---|---|---|
| | Respublikasının Dövlət Vergi Xidməti, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə, səlahiyyətli orqana və lisenziya verilmiş fəaliyyət növü üzrə müvafiq nəzarət orqanına verilməməsi (İnzibati Xətalar Məcəlləsi, maddə 602-1.1) | |
| 24 | Sahibkar tərəfindən yoxlama prosesində yoxlamaya aid sənədlərin yoxlayıcıya təqdim edilməməsi, yoxlama zamanı yaranan suallara şifahi və (və ya) yazılı izahatlar verilməməsi, təhrif olunmuş, yanlış məlumatın verilməsi və ya sahibkarlıq fəaliyyəti üçün istifadə olunan əraziyə, istehsal və emal müəssisələrinə, anbarlara, satış sahələrinə, nəqliyyat vasitələrinə, habelə sahibkarlıq fəaliyyəti üçün istifadə olunan digər yerlərə baxış keçirilməsinə mane olması (İnzibati Xətalar Məcəlləsi, maddə 602.4) | **Vəzifəli şəxslər** 1.000 manatdan **1.500** manatadək |
| 25 | Aksiz markası ilə markalanmalı olan və ya məcburi nişanlanma ilə nişanlanmalı olan malların nağd qaydada satılması və nağd qaydada alınması:<br><br>Pərakəndə satış istisna olmaqla, aksiz markası ilə markalanmalı olan və ya məcburi nişanlanma ilə nişanlanmalı olan malların nağd qaydada satılması, belə malların satış məqsədləri üçün nağd qaydada alınması az miqdarda (500 manatadək) törədildikdə (İnzibati Xətalar Məcəlləsi, maddə 449-1) | **Vəzifəli şəxslər** 300 manatdan **500** manatadək **Hüquqi şəxslər** 1.000 manatdan **1.500** manatadək |
| 26 | Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması (İnzibati Xətalar Məcəlləsi, maddə 211.1) | **Fiziki şəxslər** 200 manatdan **400** manatadək<br><br>**Vəzifəli şəxslər** 4.000 manatdan **5.000** manatadək cərimə, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, 1 ayadək müddətə **inzibati həbs** |

| | | |
|---|---|---|
| | | **Hüquqi şəxslər** 5.000 manatdan **11.000** manatadək |
| 27 | Epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən tələblərin pozulması, habelə vəzifəli şəxslər və hüquqi şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmaması (İnzibati Xətalar Məcəlləsi, maddə 211.2) | **Fiziki şəxslər 100 manat**<br>**Vəzifəli şəxslər 300 manat**<br>**Hüquqi şəxslər 600 manat** |
| 28 | Qeyd olunmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsi (İnzibati Xətalar Məcəlləsi, maddə 211.3) | **Fiziki şəxslər 200 manat**<br>**Vəzifəli şəxslər 600 manat**<br>**Hüquqi şəxslər 1.200 manat** |

| III | Vergi hüquq pozuntularına görə cinayət əməllərinin törədilməsi halları | Cinayət Məcəlləsinə əsasən tətbiq edilən cəzalar |
|---|---|---|
| 1 | Qanunsuz sahibkarlığa görə, yəni dövlət qeydiyyatına (vergi uçotuna) alınmadan və ya xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq (lisenziya) almadan, həmçinin lisenziyalaşdırılma şərtlərinin pozulması ilə və ya xüsusi icazə olmadan mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalardan istifadə etməklə həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul olma fiziki və ya hüquqi şəxslərə, yaxud dövlətə xeyli miqdarda (yəni 50.000 manatdan yuxarı, lakin 200.000 manatdan artıq olmayan məbləğdə) ziyan vurduqda, habelə xeyli miqdarda (yəni 50.000 manatdan yuxarı, lakin 200.000 manatdan artıq olmayan məbləğdə) gəlir əldə etməklə törədildikdə (Cinayət Məcəlləsi, maddə 192.1) | Cinayət nəticəsində **vurulmuş ziyanın** (əldə edilmiş gəlirin) **2 mislindən 3 mislinədək miqdarda cərimə** və ya 1 ilədək müddətdə islah işləri və ya 6 ayadək müddətə azadlıqdan məhrum etmə |
| | **Eyni əməllər:**<br>- külli miqdarda (yəni 200.000 manatdan yuxarı, lakin 500.000 manatdan artıq olmayan məbləğdə) ziyan vurduqda;<br>- külli miqdarda (yəni 200.000 manatdan yuxarı, lakin 500.000 manatdan artıq olmayan məbləğdə) gəlir əldə etməklə törədildikdə;<br>- mütəşəkkil dəstə tərəfindən törədildikdə<br>(Cinayət Məcəlləsi, maddə 192.2) | Cinayət nəticəsində **vurulmuş ziyanın** (əldə edilmiş gəlirin) **3 misli miqdarında cərimə** və ya 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 1 ildən 5 ilədək müddətə azadlıqdan məhrum etmə |
| | **Yuxarıdakı 2 bənddə sadalanan əməllər:**<br>- xüsusilə külli miqdarda (yəni, 500.000 manatdan yuxarı olan məbləğdə) ziyan vurduqda<br>- xüsusilə külli miqdarda (yəni, 500.000 manatdan yuxarı olan məbləğdə) gəlir əldə etməklə törədildikdə<br>(Cinayət Məcəllesi, maddə 192.3)<br><br>Cinayət Məcəlləsinin 192-ci maddəsində nəzərdə tutulan əməli (əməlləri) törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə | 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə cinayət nəticəsində **vurulmuş ziyanın** (əldə edilmiş gəlirin) **4 misli miqdarında cərimə** və ya 5 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə |

| | | |
|---|---|---|
| | vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.<br>(Cinayət Məcəlləsi, maddə 73-2.2) | |
| 2 | Yalançı sahibkarlıq, yəni kredit almaq, rüsumlardan azad olmaq və ya digər əmlak mənfəəti əldə etmək, yaxud qadağan edilmiş fəaliyyəti gizlətmək məqsədi ilə sahibkarlıq fəaliyyətini həyata keçirmək niyyəti olmadan müəssisə və ya digər hüquqi şəxsin yaradılması xeyli miqdarda (yəni 50.000 manatdan yuxarı, lakin 200.000 manatdan artıq olmayan məbləğdə) ziyan vurduqda, habelə xeyli miqdarda (yəni 50.000 manatdan yuxarı, lakin 200.000 manatdan artıq olmayan məbləğdə) gəlir əldə etməklə törədildikdə<br>(Cinayət Məcəlləsi, maddə 193.1) | Cinayət nəticəsində **vurulmuş ziyanın** (əldə edilmiş gəlirin) **2 mislindən 3 mislinədək** miqdarda cərimə və ya altı ayadək müddətə azadlığın məhdudlaşdırılması və ya 6 ayadək müddətə azadlıqdan məhrumetmə |
| | **Eyni əməllər:**<br>- külli miqdarda, yəni 200.000 manatdan yuxarı, lakin 500.000 artıq olmayan məbləğdə ziyan vurduqda;<br>- külli miqdarda, yəni 200.000 manatdan yuxarı, lakin 500.000 artıq olmayan məbləğdə gəlir əldə etməklə törədildikdə;<br>- mütəşəkkil dəstə tərəfindən törədildikdə<br>(Cinayət Məcəlləsi, maddə 193.2) | Cinayət nəticəsində **vurulmuş ziyanın** (əldə edilmiş gəlirin) **3 misli miqdarında cərimə** və ya 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 1 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə |
| | **Eyni əməllər:**<br>- xüsusilə külli miqdarda (yəni, 500.000 manatdan yuxarı olan məbləğdə) ziyan vurduqda<br>- xüsusilə külli miqdarda (yəni, 500.000 manatdan yuxarı olan məbləğdə) gəlir əldə etməklə törədildikdə<br>(Cinayət Məcəlləsi, maddə 193.3)<br><br>Cinayət Məcəlləsinin 193-cü maddəsində nəzərdə tutulan əməlləri törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında | Üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) dörd misli miqdarında cərimə və ya beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə |

| | | |
|---|---|---|
| | dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.<br>(Cinayət Məcəlləsi, maddə 73-2) | |
| 3 | Cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırmaya görə, yəni<br>1. Cinayət yolu ilə əldə edildiyini bilə-bilə əmlakın əldə edilməsinin həqiqi mənbəyini gizlətmək və ya cinayət törətmiş şəxsin məsuliyyətdən yayınması üçün ona kömək etmək məqsədilə belə əmlakın konversiyası və ya köçürülməsi, yaxud həmin məqsədlərlə cinayət yolu ilə əldə edilmiş əmlakdan istifadə etməklə maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirməsi<br>(Cinayət Məcəlləsi, 193-1.1.1) | **4.000 manatdan 8.000 manatadək cərimə** və ya 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə, **2 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| | 2. Cinayət yolu ilə əldə edildiyini bilə-bilə əmlakın həqiqi xarakterinin, mənbəyinin, yerinin, onlara sərəncam verilməsinin, onların yerdəyişməsinin, belə əmlaka olan hüquqların və ya onların kimə məxsus olmasının ört-basdır edilməsi və ya gizlədilməsi<br>(Cinayət Məcəlləsi, 193-1.1.2) | |
| | **Eyni əməllər:**<br>- qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;<br>- təkrar törədildikdə;<br>- şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə<br>(Cinayət Məcəlləsi, 193-1.2) | 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə, **5 ildən 8 ilədək** müddətə azadlıqdan **məhrumetmə** |
| | Cinayət Məcəlləsinin 193-1.1-ci və ya 193-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:<br>- mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;<br>-xeyli miqdarda (yəni 50.000 manatdan artıq olan məbləğdə) törədildikdə<br>(Cinayət Məcəlləsi, maddə 193-1.3) | 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə **7 ildən 12 ilədək** müddətə azadlıqdan məhrumetmə |

| | | |
|---|---|---|
| 4 | Qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə, yəni təşkilatın rəhbəri və ya fərdi sahibkar tərəfindən təşkilatın, yaxud fərdi sahibkarın təsərrüfat və ya maliyyə vəziyyəti barədə bilə-bilə yalan məlumatlar verməklə kreditin, güzəştli şərtlərlə kreditin və ya məqsədli dövlət kreditinin alınması, habelə ondan təyinatı üzrə istifadə edilməməsi xeyli miqdarda (yəni 50.000 manatdan yuxarı, lakin 200.000 manatdan artıq olmayan məbləğdə) ziyan vurduqda (Cinayət Məcəlləsi, maddə 195.1) | Cinayət nəticəsində vurulmuş ziyanın **2 mislindən 3 mislinədək miqdarda cərimə** və ya 2 ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| | Eyni əməllərlə külli miqdarda (yəni 200.000 manatdan artıq olan məbləğdə) ziyan vurduqda (Cinayət Məcəlləsi, maddə 195.2)<br>Cinayət Məcəlləsinin 195-ci maddəsində nəzərdə tutulan əməlləri törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.<br>(Cinayət Məcəlləsi, maddə 73-2) | Cinayət nəticəsində vurulmuş ziyanın 3 misli miqdarında cərimə və ya 1 ildən 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya **2 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| 5 | Müvafiq razılıq olmadan dini təyinatlı ədəbiyyatı (kağız və elektron daşıyıcılarında), audio və video materialları, mal və məmulatları və dini məzmunlu başqa məlumat materiallarını istehsal etmə, satış və ya yayma məqsədi ilə idxal etmə, satma və ya yayma<br>(Cinayət Məcəlləsi, maddə 167-2.1) | **5.000 manatdan 7.000 manatadək miqdarda cərimə** və ya 2 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** |

| | | |
|---|---|---|
| | **Eyni əməllər;**<br>- qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;<br>- təkrar törədildikdə;<br>- vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə (Cinayət Məcəlləsi, maddə 167-2.2) | **7.000 manatdan 9.000 manatadək miqdarda cərimə** və ya 2 ildən 4 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 2 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə |
| 6 | Saxta aksiz markalarını və ya məcburi nişanları hazırlama, əldə etmə, saxlama, satma, habelə aksiz markası ilə markalanmalı olan malları saxta aksiz markaları ilə markalama və ya məcburi nişanlama ilə nişanlanmalı olan malları saxta məcburi nişanlama ilə nişanlama, fiziki şəxslər tərəfindən pərakəndə satış obyektindən istehlak məqsədilə əldə etmə istisna olmaqla, saxta aksiz markaları ilə markalanmış və ya saxta məcburi nişanlama ilə nişanlanmış malları əldə etmə, saxlama və ya satma (Cinayət Məcəlləsi, maddə 205-1)<br>**Qeyd:** Saxta aksiz markası ilə markalanmış və ya saxta məcburi nişanlama ilə nişanlanmış malları əldə edən, saxlayan və ya satan şəxs həmin malların digər şəxsdən alınmasını təsdiq edən ciddi hesabat blankı, elektron qaimə-faktura təqdim etdikdə cinayət məsuliyyətinə cəlb olunmur. | **2.000 manatdan 3.000 manatadək miqdarda cərimə** və ya 2 ilədək müddətə islah işləri və ya **3 ilədək müddətə azadıqdan məhrumetmə** |
| 7 | Nəzarət markalarının qəsdən məhv edilməsi, saxtalaşdırılması, qeyri-qanuni yolla hazırlanması, istifadəsi və satışı, əgər bu əməllər nəticəsində xeyli miqdarda (yəni 50.000 manatdan yuxarı, lakin 200.000 manatdan artıq olmayan məbləğdə) ziyan vurulmuşdursa<br>(Cinayət Məcəlləsi, maddə 205-2.1) | Cinayət nəticəsində **vurulmuş ziyanın 2 mislindən 3 mislinədək miqdarda cərimə** və ya 2 ilədək müddətə islah işləri və ya **1 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| | **Eyni əməllər:**<br>- təkrar törədildikdə;<br>- qabaqcadan əlbir olan bir qrup şəxs və ya | |

| | | |
|---|---|---|
| | mütəşəkkil dəstə tərəfindən törədildikdə;<br>- külli miqdarda, yəni 200.000 manatdan artıq olan məbləğdə ziyan vurduqda (Cinayət Məcəlləsi, maddə 205-2.2)<br>Cinayət Məcəlləsinin 205-2-ci maddəsində nəzərdə tutulan əməlləri törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.<br>(Cinayət Məcəlləsi, maddə 73-2) | Cinayət nəticəsində **vurulmuş ziyanın 3 misli miqdarında cərimə** və ya 2 ildən **4 illədək müddətə azadlıqdan məhrumetmə** |
| 8 | Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi, yəni Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi (Cinayət Məcəlləsi, maddə 162-1.1)<br>Bu maddədə nəzərdə tutulmuş əməli törətmiş şəxs Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada işçiləri ilə əmək müqaviləsi bağladıqda və dövlət büdcəsinə ödəməkdən yayındırılmış vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və məcburi dövlət sosial sığorta haqlarını tamamilə ödədikdə yalnız bir dəfə cinayət məsuliyyətindən azad edilir. | **7.000 manatdan 10.000 manatadək miqdarda cərimə** ya 2 ilədək müddətə islah işləri və ya 2 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| | **Eyni əməllər təkrar törədildikdə**<br>(Cinayət Məcəlləsi, maddə 162-1.2) | 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya **3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə** |

| | | |
|---|---|---|
| 9 | Müflisləşmə zamanı qanunsuz hərəkətlər, yəni<br>**1.** Borclu təşkilatın rəhbəri və ya mülkiyyətçisi, habelə fərdi sahibkar tərəfindən müflisləşmə zamanı və ya müflisləşmə güman edilən zaman əmlakın və ya əmlak öhdəliklərinin, əmlak haqqında məlumatların, onun miqdarının, olduğu yerin, yaxud əmlak haqqında digər məlumatların gizlədilməsi, əmlakın digərinin sahibliyinə verilməsi, əmlakın özgəninkiləşdirilməsi və ya məhv edilməsi, habelə iqtisadi fəaliyyəti əks etdirən mühasibat və ya digər hesabat sənədlərinin gizlədilməsi, məhv edilməsi və ya saxtalaşdırılması ilə xeyli miqdarda (yəni 50.000 manatdan yuxarı, lakin 200.000 manatdan artıq olmayan məbləğdə) ziyan vurduqda<br>(Cinayət Məcəlləsi, maddə 210.1) | Cinayət nəticəsində vurulmuş ziyanın **2 mislindən 3 mislinədək** miqdarda cərimə və ya 2 ilədək müddətə islah işləri və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| | **2.** Borclu təşkilatın rəhbəri və ya mülkiyyətçisi, habelə fərdi sahibkar tərəfindən özünün müflis olduğunu bilə-bilə digər kreditorların mənafeyinə ziyan vurmaqla ayrı-ayrı kreditorların əmlak tələblərinin təmin edilməsi, habelə müflisləşmiş borclunun üstünlük verdiyi kreditor tərəfindən əmlakın qəbul edilməsinin digər kreditorlara ziyan vurduğunu bilə-bilə həmin əmlakın qəbul edilməsi ilə külli miqdarda (yəni 200.000 manatdan artıq olan məbləğdə) ziyan vurduqda<br>(Cinayət Məcəlləsi, maddə 210.2)<br>Cinayət Məcəlləsinin 210-cu maddəsində nəzərdə tutulan əməlləri törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir.<br>(Cinayət Məcəlləsi, maddə 73-2) | Cinayət nəticəsində **vurulmuş ziyanın 3 misli miqdarında cərimə** və ya 2 ilədək müddətə azadlıqdan məhrumetmə |

| | | |
|---|---|---|
| 10 | Qəsdən müflisləşmə, yəni kommersiya təşkilatının rəhbəri və ya mülkiyyətçisi, habelə fərdi sahibkar tərəfindən özünün və ya digər şəxslərin mənafeyi naminə qəsdən ödəmə qabiliyyətsizliyinin yaradılması və ya artırılması xeyli miqdarda (yəni 50.000 manatdan yuxarı, lakin 200.000 manatdan artıq olmayan məbləğdə) ziyan vurduqda (Cinayət Məcəlləsi, maddə 211.1) | Cinayət nəticəsində **vurulmuş ziyanın 2 mislindən 3 mislinədək miqdarda cərimə** və ya 2 ilədək müddətə islah işləri və ya 1 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya **1 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| | Eyni əməllər külli miqdarda (yəni 200.000 manatdan artıq olan məbləğdə) ziyan vurduqda və ya digər ağır nəticələrə səbəb olduqda (Cinayət Məcəlləsi, maddə 211.2)<br><br>Cinayət Məcəllәsinin 211-ci maddəsində nəzərdə tutulan əməlləri törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir. (Cinayət Məcəlləsi, maddə 73-2) | Cinayət nəticəsində **vurulmuş ziyanın 3 misli miqdarında cərimə** və ya 2 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| 11 | Saxta müflisləşmə, yəni kommersiya təşkilatının rəhbəri və ya mülkiyyətçisi, habelə fərdi sahibkar tərəfindən kreditorlara olan borcun ödənilməsini təxirə salmaq və ya möhlət almaq, habelə borcun azaldılmasına nail olmaq və ya borcu ödəməkdən yayınmaq üçün kreditorları aldatmaq məqsədi ilə özünü bilə-bilə yalandan ödəmə qabiliyyəti olmayan elan etməsi xeyli miqdarda (yəni 50.000 manatdan yuxarı, lakin 200.000 manatdan artıq olmayan məbləğdə) ziyan vurduqda (Cinayət Məcəlləsi, maddə 212.1) | Cinayət nəticəsində **vurulmuş ziyanın 2 mislindən 3** mislinədək miqdarda cərimə və ya 1 ilədək müddətə islah işləri və ya eyni müddətə **azadlıqdan məhrumetmə** |

| | | |
|---|---|---|
| | Eyni əməllər külli miqdarda (yəni 200.000 manatdan artıq olan məbləğdə) ziyan vurduqda və ya digər ağır nəticələrə səbəb olduqda (Cinayət Məcəlləsi, maddə 212.2)<br><br>Cinayət Məcəlləsinin 212-ci maddəsində nəzərdə tutulan əməlləri törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad edilir. (Cinayət Məcəlləsi, maddə 73-2) | Cinayət nəticəsində vurulmuş ziyanın **3 misli miqdarında cərimə** və ya 2 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| 12 | Vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma, yəni xeyli miqdarda (50.000 manatdan yuxarı, lakin 200.000 manatdan artıq olmayan məbləğdə) vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və ya məcburi dövlət sosial sığorta haqlarını ödəməkdən yayınma (Cinayət Məcəlləsi, maddə 213.1) | Cinayət nəticəsində vurulmuş ziyanın **2 mislindən 3 mislinədək miqdarda cərimə** və ya 2 ilədək müddətə islah işləri və ya 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə **3 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| | Eyni əməllər:<br>- mütəşəkkil dəstə tərəfindən törədildikdə;<br>- külli miqdarda (yəni 200.000 manatdan yuxarı, lakin 500.000 manatdan artıq olmayan məbləğdə) törədildikdə<br>(Cinayət Məcəlləsi, maddə 213.2) | Cinayət nəticəsində vurulmuş ziyanın 3 misli miqdarında cərimə və ya 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 3 ildən 5 ilədək müddətə **azadlıqdan məhrumetmə** |

| | | |
|---|---|---|
| | **Eyni əməllər** xüsusilə külli miqdarda (500.000 manatdan yuxarı olan məbləğdə) törədildikə (Cinayət Məcəlləsi, maddə 213.3)<br><br>Cinayət Məcəlləsinin 213-cü maddəsində nəzərdə tutulmuş əməlləri törətmiş şəxs cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.<br>(Cinayət Məcəlləsi, maddə 73-2) | **3 ilədək** müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) **4 misli** miqdarında cərimə və ya **5 ildən 7 ilədək** müddətə azadlıqdan məhrumetmə |
| 13 | Aksiz markası ilə markalanmalı olan malları belə marka olmadan və ya məcburi nişanlama ilə nişanlanmalı olan malları nişanlanmadan xeyli miqdarda, yəni 500 manatdan 2.000 manatadək olan məbləğdə satma, satış məqsədi ilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə<br>(Cinayət Məcəlləsi, maddə 213-1.1) | **2.000 manatdan 3.000 manatadək miqdarda cərimə** və ya 1 ilədək müddətə islah işləri və ya 2 ilədək müddətə **azadlıqdan məhrumetmə** |
| | Cinayət Məcəlləsinin 213-1.1-ci maddələrində nəzərdə tutulmuş əməllər;<br>- külli miqdarda, yəni 2.000 manatdan yuxarı olan məbləğdə törədildikdə;<br>- təkrar törədildikdə;<br>- qabaqcan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə<br>(Cinayət Məcəlləsi, maddə 213-1.2) | **5 ilədək** müddətə azadlıqdan məhrumetmə |
| 14 | Pərakəndə satış istisna olmaqla, aksiz markası ilə markalanmalı olan və ya məcburi nişanlama ilə nişanlanmalı olan malları nağd qaydada xeyli miqdarda (yəni 500 manatdan 2.000 manatadək olan məbləğdə) satma, belə məhsulları (malları) satış məqsədləri üçün nağd qaydada xeyli miqdarda, yəni 500 manatdan 2.000 manatadək olan məbləğdə alma<br>(Cinayət Məcəlləsi, maddə 213-1.3) | 1.000 manatdan 2.000 manatadək miqdarda cərimə və ya 1 ilədək müddətə islah işləri və ya 1 ilədək **azadlıqdan məhrumetmə** |

| | | |
|---|---|---|
| | Cinayət Məcəlləsinin 213-1.3-cü maddələrində nəzərdə tutulmuş əməllər külli miqdarda, yəni 2.000 manatdan yuxarı olan məbləğdə törədildikdə (Cinayət Məcəlləsi, maddə 213-1.4) | 2 ilədək müddətə islah işləri və ya **2 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| 15 | Məhkəmənin hökmünü, qərarını, yaxud digər aktını icra etməməyə görə, yəni qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini qərəzli olaraq icra etməmə və ya həmin məhkəmə aktlarının icrasına maneçilik törətmə (Cinayət Məcəlləsi, maddə 306.1) | **2.000 manatdan 4.000 manatadək miqdarda cərimə** və ya 320 saatdan 480 saatadək ictimai işlər və ya 2 ilədək müddətə islah işləri və ya 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya **3 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| | Eyni əməllər vəzifəli şəxs tərəfindən törədildikdə (Cinayət Məcəlləsi, maddə 306.2) Cinayət Məcəlləsinin 306.1 və ya 306.2-ci maddələrində nəzərdə tutulmuş əməlləri törətmiş şəxs qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsini, hökmünü, qərardadını, qərarını və ya əmrini həmin əməllərlə bağlı hökm qanuni qüvvəyə minənədək tam icra etdikdə cinayət məsuliyyətindən azad edilir. | 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə **5.000 manatdan 7.000 manatadək miqdarda cərimə** və ya 2 ilədək müddətə islah işləri ə ya 3 ildən 5 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya **3 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| 16 | Qumar oyunlarının (yəni pul vəsaitləri, maddi və sair nemət (uduş) barəsində oynanılan və uduşu qeyri-müəyyənlikdən və ya təsadüfdən asılı olan oyunlar (o cümlədən mərclər)) təşkili və ya keçirilməsi, habelə qumar oyunlarının keçirilməsi üçün yer təşkiletmə və ya saxlama (Cinayət Məcəlləsi, maddə 244-1.1) | **5.000 manatdan 10.000 manatadək miqdarda cərimə** və ya 2 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 2 ilədək müddətə **azadlıqdan məhrumetmə** |

| | | |
|---|---|---|
| | **Eyni əməllər**<br>• təkrar törədildikdə;<br>• internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədildikdə;<br>• yetkinlik yaşına çatmayanların qumar oyunlarında iştirakına yol verməklə törədildikdə;<br>• qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;<br>• xeyli miqdarda (yəni 50.000 manatdan yuxarı, lakin 200.000 manatdan artıq olmayan məbləğ) gəlir əldə etməklə törədildikdə<br>• (Cinayət Məcəlləsi, maddə 244-1.2) | **10.000 manatdan 15.000 manatadək miqdarda cərimə** və ya 2 ildən 3 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 2 ildən **3 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| | Cinayət Məcəlləsinin 244-1.1-ci və ya 244-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;<br>külli miqdarda (yəni 200.000 manatdan yuxarı, lakin 500.000 manatdan artıq olmayan məbləğ) gəlir əldə etməklə törədildikdə<br>(Cinayət Məcəlləsi, maddə 244-1.3) | 3 ildən 4 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya **3 ildən 4 ilədək müddətə azadlıqdan məhrumetmə** |
| | Cinayət Məcəlləsinin 244-1.1 – 244-1.3-cü maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda (yəni 500.000 manatdan yuxarı olan məbləğ) gəlir əldə etməklə törədildikdə<br>(Cinayət Məcəlləsi, maddə 244-1.4)<br><br>**Qeyd:** Cinayət Məcəlləsinin 244-1.2.5-ci, 244-1.3.2-ci və 244-1.4-cü maddələrində nəzərdə tutulmuş əməlləri törətmiş və cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxs, bundan əlavə əldə edilmiş gəlirin bir misli miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən yalnız bir dəfə azad edilir. | 4 ildən 5 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya **4 ildən 8 ilədək müddətə azadlıqdan məhrumetmə** |

| IV | **Vergi hüquq puzuntularına görə vətəndaşın ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması halları** | **Cinayət Məcəlləsinə əsasən tətbiq edilən Miqrasiya Məcəlləsinə əsasən vətəndaşın ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması müddəti** |
|---|---|---|
| 1 | Məhkəmə qərarları, əmrləri və vergi orqanlarının pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları əsasında verilmiş icra sənədinin könüllü icra üçün müəyyən olunmuş vaxtda üzrsüz səbəbdən icra edilməməsinə görə vətəndaşın ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda<br>(Miqrasiya Məcəlləsi, maddə 9.3.6) | Məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək |
| 2 | Vergi, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqları üzrə öhdəliyini qanunla müəyyən edilmiş hallarda və müddətlərdə yerinə yetirmədikdə, hesablanmış vergilər, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqları üzrə borcları və faizləri, vergilər və məcburi dövlət sosial sığorta haqları üzrə tətbiq edilmiş maliyyə sanksiyalarını ödəməməsinə görə vətəndaşın ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda<br>(Miqrasiya Məcəlləsi, maddə 9.3.6-1) | Məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək |

| V | Vergi hüquq puzuntularına görə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasından getməsinin müvəqqəti məhdudlaşdırılması halları | Miqrasiya Məcəlləsinə əsasən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasından getməsinin müvəqqəti məhdudlaşdırılması müddəti |
|---|---|---|
| 1 | Məhkəmə qərarları, əmrləri və vergi orqanlarının pul tələblərinin ödənilməsi ilə bağlı inzibati aktları əsasında verilmiş icra sənədinin könüllü icra üçün müəyyən olunmuş vaxtda üzrsüz səbəbdən icra edilməməsinə görə onların ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda (Miqrasiya Məcəlləsi, maddə 17.1.6) | Məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək |
| 2 | Vergi ödəyicisi və ya sığortaedən vergi, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqları üzrə öhdəliyini qanunla müəyyən edilmiş hallarda və müddətlərdə yerinə yetirmədikdə, hesablanmış vergilər, məcburi dövlət sosial sığorta, icbari tibbi sığorta və işsizlikdən sığorta haqları üzrə borcları və faizləri, vergilər və məcburi dövlət sosial sığorta haqları üzrə tətbiq edilmiş maliyyə sanksiyalarını ödəməməsinə görə onların ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda (Miqrasiya Məcəlləsi, maddə 17.1.6-1) | Məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək |

VERGİLƏRƏ AİD
NƏŞRLƏR

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**